# “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyaları ənənə halı alıb

## Cənub bölgəsi ilə tanış olmaq məktəblilərimizin ürəyincədir

***Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədlərindən biri gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunması ilə bağlı məktəblilər ölkəmizin hər bir regionunda iqtisadi-sosial sahədə əldə olunan nailiyyətlərlə, tikinti-abadlıq işləri ilə yaxından tanış olurlar. “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar da məhz bu amala xidmət edir.***

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün təşkil olunan “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində noyabrın 13-də Qəbələ rayon məktəblilərinin Lənkəran, Masallı və Astara rayonlarına yolasalınma mərasimi olub. Heydər Əliyev Parkında təşkil olunan mərasimdə RİH başçısının müavini Ətayə Osmanova, təhsil işçiləri, KİV nümayəndələri və valideynlər iştirak edib.

Maarifləndirici tur aksiyaya hazırlıqla bağlı rayon icra hakimiyyəti tərəfindən qərargah yaradılıb və informasiya təminatı və təhlil sektorunun müdiri Zahir Kərimov 40 nəfərlik qrupa rəhbər təyin olunub.

Tur-aksiyada iştirak edəcək məktəblilər tibbi müayinədən keçirilib, şagirdlərə xüsusi geyimlər paylanılıb.

Daha sonra tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.

“Ölkəmizi tanıyaq” tur-aksiyanın iştirakçıları - Qəbələ şəhər 5 nömrəli tam orta məktəbinin IX sinif şagirdi Nüşabə Zərbəliyeva və Abrıx kənd tam orta məktəbin X sinif şagirdi Məhəbbət Zəkəriyyəyev sevinclərini bölüşərək, səfər zamanı Azərbaycanın cənub bölgəsinin tarixi, mədəniyyət abidələri ilə əyani tanışlığın onların ürəyincə olacağını bildiriblər.



Sonda tur-aksiyada iştirakçıları onlar üçün ayrılmış xüsusi avtobusla cənub bölgəsinə yola düşüblər.

**“Qəbələ”**

## Məktəblilərimizin cənub bölgəsinə ekskursiyası Lənkərandan başlayıb

“Ölkəmizi tanıyaq!” devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsi çərçivəsində Qəbələ məktəbliləri və onların müəllimləri noyabrın 13-də axşam saatlarında Lənkərana gəliblər.




Onların Lənkərandakı Heydər Əliyev Parkında qarşılanması mərasimində çıxış edən şəhər icra hakimiyyəti başçısının birinci müavini Möhübbət Babayev “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində təşkil olunmuş tur-aksiyaların əhəmiyyətindən danışıb, cənub bölgəsinə səyahət edən məktəblilərə ən xoş arzularını çatdırıb.

Lənkərandakı “Şah” hotelində yerləşən humanitar aksiyanın iştirakçıları şam yeməyindən sonra müxtəlif əyləncəli proqramlarda iştirak ediblər.

**“Qəbələ”**

## Cənub bölgəsi məktəblilərdə zəngin təəssürat yaradıb

***Noyabrın 14-də “Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçısı olan Qəbələ məktəbliləri Astara və Masallı rayonlarına səyahət ediblər.***



Onlar Astara rayonunda Heydər Əliyev Mərkəzində, “Gənclər evi”ndə, Xəzər dənizi sahilində salınmış park-bulvar kompleksində, “Yanar bulaq”da və “Astaraçay” MMC-nin çay fabrikində, Masallı rayonunda Heydər Əliyev Mərkəzində, bayraq meydanında, tarix-diyarşünaslıq muzeyində, dövlət rəmzləri muzeyində, olimpiya idman kompleksində, uşaq incəsənət məktəbində, “ASAN həyat” kompleksində, Viləşçay Su Anbarında və Masallı Sənaye Məhəlləsində olublar.



Cənub bölgəsi ilə tanışlıq məktəblilərdə zəngin təəssürat yaradıb.

Axşam yeməyindən sonra məktəblilər intellektual yarışlarda öz biliklərini nümayiş etdirərərək ikinci yerə çıxıb və kubokla təltif ediliblər.

**“Qəbələ”**

## Məktəblilərimiz xoş təəssüratlarla geri dönmüşlər



“Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində bölgələrə təşkil edilmiş növbəti tur-aksiyanın birinci mərhələsi başa çatıb. Qəbələ məktəbliləri və onların müəllimləri dörd gün ərzində cənub bölgəsinə səyahət zamanı şəhər və rayonların tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələri ilə yaxından tanış olublar.



Noyabrın 16-da rayonumuzun IX-XI sinif şagirdləri və onların müəllimləri Lənkəran-Masallı-Astara zonasına ekskursiyanı başa çatdıraraq zəngin təəssüratlarla Qəbələyə qayıtmışlar.

Məktəblilər ölkəmizi daha yaxından tanımaq üçün yaradılan şəraitə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

**“Qəbələ”**

## Qrup rəhbəri: Şagirdlərin dünyagörüşünün formalaşmasında tur-aksiyalar böyük əhəmiyyət kəsb edir



Altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin “Ölkəmizi tanıyaq” devizi ilə Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.

Bu sözləri tur-aksiyanın Qəbələ rayonundan olan qrup rəhbəri Zahir Kərimov Lənkəranda AZƏRTAC-ın bölgə müxbirinə verdiyi müsahibəsində bildirib.

Layihənin proqramına uyğun olaraq şagirdlərin maarifləndiyini, dünyagörüşlərinin artdığını, eyni zamanda, Azərbaycanın dilbər guşələri ilə daha yaxından tanış olduğunu vurğulayan Z. Kərimov aksiya çərçivəsində məktəblilərin Lənkəran-Masallı-Astara rayonlarının tarixi-mədəni abidələri, sənaye və istehsal müəssisələri ilə yaxından tanış olacağını diqqətə çatdırıb.

Qrup rəhbəri daha sonra deyib: “Bütün bunlar şagirdlərə Azərbaycanda gedən dinamik inkişafın nəticələrini daha yaxından seyr etmək üçün geniş imkanlar açacaq. Əminəm ki, dörd gün davam edəcək maraqlı səyahət məktəblilərin yaddaşında silinməz izlər buraxacaq. Bu gün tur-aksiyada iştirak edən məktəblilər gələcəkdə savadlı mütəxəssislər kimi ölkəmizin inkişafında mühüm rol oynayacaqlar”.